**“Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında” Sazişin təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında” 2022-ci il iyunun 21-də Daşkənd şəhərində imzalanmış Saziş təsdiq edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 sentyabr 2022-ci il
594-VIQ

**Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında**

**SAZİŞ**

Bundan sonra “Tərəflər” adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti,

1951-ci il tarixli Bitki karantini və mühafizəsi üzrə Beynəlxalq Konvensiya (bundan sonra - IPPC) çərçivəsində qəbul edilmiş Fitosanitar Tədbirlər üzrə Beynəlxalq Standartlara (bundan sonra - ISPM) uyğun olaraq, fitosanitar tədbirlərin səmərəli həyata keçirilməsi üçün bitki karantini və mühafizəsi sahəsində ikitərəfli əməkdaşlığı gücləndirməyə səy göstərərək,

Tərəflərin dövlətlərinin ərazilərini tənzimlənən zərərli orqanizmlərin daxil olması və yayılmasından qorumaq, habelə kənd təsərrüfatı məhsullarının ticarəti zamanı fitosanitar riski azaltmaq üçün birgə tədbirlər görməyə niyyət edərək, aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1**

Tərəflər dövlətlərinin ərazilərini tənzimlənən zərərli orqanizmlərin daxil olmasından qorumaq, həmçinin Tərəflərin dövlətləri arasında məhsul dövriyyəsinin artmasına dəstək olmaq məqsədilə bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq həyata keçirirlər.

Bu Sazişdə istifadə olunan terminlər IPPC və ISPM-də göstərilənlərlə eyni mənaya malikdir.

Bu Sazişin məqsədləri üçün “bitki karantini obyektlərinin daşıyıcıları”, “karantin nəzarətində olan məhsullar”, “karantin nəzarətində olan yüklər”, “karantin nəzarətində olan materiallar”, “karantin nəzarətində olan mallar” və “tənzimlənən obyektlər” anlayışları eyni mənaya malikdir və bu Sazişdə “tənzimlənən obyektlər” anlayışından istifadə olunur.

**Maddə 2**

Bu Sazişin müddəalarının həyata keçirilməsi və əlaqələndirilməsi üçün Tərəflərin məsul səlahiyyətli qurumları aşağıdakılardır:

Azərbaycan Respublikası Hökuməti adından - Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi;

Özbəkistan Respublikası Hökuməti adından - Özbəkistan Respublikasının Bitki Karantini və Mühafizəsi üzrə Agentliyi.

**Maddə 3**

Tərəflər dövlətlərinin ərazilərində olan zərərli orqanizmlərdən azad zonalar, azad istehsal sahələri, azad istehsal yerləri və zərərli orqanizmlərin az sayda olduğu zonalar haqqında bir-birinə məlumat verəcəklər.

Tərəflər həmçinin zərərli orqanizmlərdən azad zonaların yaradılması, habelə onların qorunması üçün effektiv fitosanitar tədbirlərin tətbiqi ilə bağlı təcrübə mübadiləsi aparırlar.

**Maddə 4**

Tərəflər tənzimlənən obyektlərə zərər verə biləcək Tərəflərin dövlətləri üçün tənzimlənən zərərli orqanizmlərin mövcud olub-olmadığını müəyyən etmək məqsədilə tənzimlənən obyektlərin istehsalı, emalı, daşınması və həmçinin saxlanması prosesləri zamanı onların karantin baxışını həyata keçirəcəklər.

Tərəflər bir Tərəfin dövlətinin ərazisindən digər Tərəfin dövlətinin ərazisinə daşınan tənzimlənən obyektlərin idxalı, ixracı, təkrar ixracı və tranziti üçün öz dövlətlərinin qanunvericiliyi ilə təsdiq edilmiş fitosanitar qaydalara riayət etməyi öhdələrinə götürürlər.

**Maddə 5**

Tərəflər fitosanitar risk təhlili sahəsində əməkdaşlıq edirlər və sorğu əsasında, başa çatdırılmış fitosanitar risk təhlilinin nəticələrini tanışlıq məqsədləri üçün mübadilə edə bilərlər.

**Maddə 6**

Bir Tərəfin dövlətinin ərazisindən digər Tərəfin dövlətinin ərazisinə ixrac edilən və ya bir Tərəfin dövlətinin ərazisi ilə digər Tərəfin dövlətinin ərazisinə tranzitlə daşınan tənzimlənən obyektlər və ya üçüncü ölkə mənşəli olan, Tərəflərdən birinin dövlətinin ərazisində yenidən qablaşdırma, yenidən yükləmə və ya hissələrə bölünməyə məruz qalmış tənzimlənən obyektlər

fitosanitar sertifikatın və ya təkrar ixrac fitosanitar sertifikatın əsli ilə, yaxud əgər idxalçı Tərəfin dövlətinin fitosanitar tələblərinə uyğun olaraq milli qanunvericilikdə nəzərdə tutulursa, karantin icazəsi (idxal və ya tranzit üçün) ilə müşayiət olunmalıdır.

Fitosanitar sertifikatlarda tənzimlənən obyektlərin partiyalarının eyniləşdirilməsi üçün bu partiyanın daşındığı nəqliyyat vasitəsinin nömrəsi (adı) göstərilir. Fitosanitar sertifikatlar 12 saylı ISPM-ə uyğun olaraq rəsmiləşdirilir.

Fitosanitar sertifikatın olması Tərəflərin, öz dövlətlərinin qanunvericiliyinə uyğun olaraq, tənzimlənən obyektlərin karantin yoxlamasını aparmaq hüququnu istisna etmir.

Tənzimlənən obyektlərin zərərsizləşdirilməsi Tərəflərdən birinin dövlətinin ərazisində aparılmışdırsa, göstərilən obyektlərin digər Tərəfin dövlətinin ərazisinə idxalına onların deqazasiyasından (tənzimlənən obyektlərdən qazların süni çıxarılması) və ya digər Tərəflə qabaqcadan əldə olunmuş razılıqlara əsasən tənzimlənən obyektləri qəbul edən Tərəfin dövlətinin ərazisində deqazasiyasından sonra icazə verilir.

Tənzimlənən obyektlərin təkrar ixracı və tranziti 12 saylı ISPM-ə uyğun olaraq həyata keçirilir.

**Maddə 7**

Bir Tərəfin dövlətinin ərazisindən digər Tərəfin dövlətinin ərazisinə tənzimlənən obyektlər ixrac edildikdə, qablaşdırma materialı kimi 15 saylı ISPM-ə uyğun olaraq xüsusi emaldan keçmiş ağac qablaşdırma materialları istifadə olunacaq. Bitki mənşəli materiallar (quru ot, küləş, püfə, yarpaq) idxal edən Tərəfin əvvəlcədən razılığı olmadan əlavə qablaşdırma materialı kimi istifadə edilməyəcək. Digər qablaşdırma materialları torpaqdan azad olmalıdır.

Tərəflər, Tərəflərin dövlətləri üçün tənzimlənən zərərli orqanizmlərin daşıyıcısı ola bilən torpaqlı canlı köklü bitkilərin idxalını qadağan edirlər.

Bir Tərəfin tənzimlənən obyektlərin digər Tərəfin dövlətinin ərazisinə daşınması üçün istifadə etdiyi nəqliyyat vasitələri hərtərəfli təmizlənməli, zəruri hallarda isə - zərərsizləşdirilməlidir.

Müayinə üçün əkin və səpin materialları idxal edildikdə, Tərəflərin razılığı ilə, idxal edən Tərəfin dövlətinin fitosanitar tələblərinə uyğun olaraq, ixracatçı ölkədə məhsulların istehsal olunduğu yerdə (şitil və toxum yetişdirilən yerlər, əkin sahələri) birgə monitorinqlər təşkil edilə bilər.

**Maddə 8**

Sərhəd məntəqələrində karantin yoxlaması zamanı idxal olunan tənzimlənən obyektlərin fitosanitar qaydalara və tələblərə ciddi uyğunsuzluq halları aşkar edilərsə, idxal edən Tərəf həmin məhsulların məhv edilməsi və ya geri qaytarılması barədə qərar qəbul etmək hüququna malikdir.

Fitosanitar qaydalara və tələblərə ciddi uyğunsuzluqlar aşağıdakı hallar hesab olunur:
- tənzimlənən zərərli orqanizmlərin aşkar edilməsi;
- fitosanitar sertifikatların olmaması;
- fitosanitar sertifikatlarda təsdiq edilməmiş dəyişikliklər və ya silinmələr;
- saxta fitosanitar sertifikatlar;
- idxalı qadağan olunmuş yüklər.

Fitosanitar tələblərin pozulmasının digər hallarında, Tərəflər idxalçı şəxslərə aşkar edilmiş uyğunsuzluğu aradan qaldırmaq imkanı verirlər. Həmin şəxslər tərəfindən ayrılan müddətdə pozuntular aradan qaldırılmadıqda, idxal edən Tərəf tənzimlənən obyektləri geri qaytarmaq və ya məhv etmək hüququna malikdir.

**Maddə 9**

İdxal olunan tənzimlənən obyektlərin fitosanitar qaydalara və tələblərə uyğun olmadığı hallarda, idxal edən Tərəf digər Tərəfə 13 saylı ISPM-ə uyğun olaraq, uyğunsuzluğun növünü və görülən tədbirləri təsvir edən bildiriş göndərir.

Bildirişlər uyğunsuzluğun aşkar edildiyi gündən bir ay ərzində göndərilir. Bildirişin səbəbinin (məsələn, zərərli orqanizmin eyniləşdirilməsini) təsdiq edilməsində əhəmiyyətli gecikmə halında, Tərəflər ilkin bildiriş göndərə bilərlər.

Bildiriş aldıqdan sonra ixrac edən Tərəf aşkar edilmiş uyğunsuzluqların aradan qaldırılması üçün tədbirlər görür və idxalçı Tərəfə nəticələr barədə dərhal məlumat verir.

**Maddə 10**

İxrac edən Tərəfin sorğusu əsasında və müsbət qiymətləndirilmə şərtilə digər Tərəf, 24 saylı ISPM-ə uyğun olaraq, ixrac edən Tərəfin gördüyü fitosanitar tədbirləri ekvivalent olaraq tanıya bilər.

Tərəflər fitosanitar tədbirlərin ekvivalentliyinin tanınması qaydasını ayrılıqda razılaşdıra bilərlər.

**Maddə 11**

Tərəflər fitosanitar sertifikatların elektron mübadiləsi sisteminin yaradılması imkanlarını nəzərdən keçirəcəklər. Onun icra mexanizmini razılaşdırmaq üçün Tərəflər ayrıca tədbirlər planı razılaşdıra bilərlər.

**Maddə 12**

Bu Sazişin müddəalarının yerinə yetirilməsi ilə bağlı praktiki məsələləri həll etmək üçün Tərəflər zərurət olduqda, növbəli şəkildə Tərəflərin dövlətlərinin ərazisində keçirilən və ya zərurət olduqda, videokonfrans formatında birgə görüşlər təşkil edirlər.

Görüşlərin keçirilməsi üzrə təşkilati xərcləri qəbul edən Tərəf ödəyir.

Belə görüşlərin yeri, tarixi və gündəliyini Tərəflər qabaqcadan müəyyən edirlər.

**Maddə 13**

Bu Saziş Tərəflərin dövlətlərinin iştirakçıları olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

**Maddə 14**

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə onun ayrılmaz tərkib hissəsi olan və bu Sazişin 16-cı maddəsində nəzərdə tutulmuş qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

**Maddə 15**

Bu Sazişin müddəalarının təfsiri və ya tətbiqi ilə əlaqədar yaranan fikir ayrılıqları Tərəflər arasında məsləhətləşmələr və danışıqlar yolu ilə həll edilir.

**Maddə 16**

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş beş (5) il müddətinə bağlanılır. Tərəflərdən heç biri bu Sazişin qüvvəsinin dayandırılması barədə digər Tərəfə məlumat vermədiyi təqdirdə, onun qüvvəsi avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılır.

Bu Saziş, Tərəflərdən birinin digər Tərəfin onun qüvvəsini dayandırmaq niyyəti barədə yazılı bildirişini diplomatik kanallar vasitəsilə aldığı tarixdən altı (6) ay keçdikdən sonra qüvvəsini itirir.

Bu Saziş qüvvəyə mindikdən sonra "Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında bitkilərin karantini sahəsində əməkdaşlıq haqqında" 2003-cü il 13 iyun tarixli Saziş qüvvəsini itirir.

Daşkənd şəhərində 2022-ci il 21 iyun tarixində, iki əsl nüsxədə, hər biri Azərbaycan, özbək və rus dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandığı təqdirdə, Tərəflər rus dilində olan mətnə istinad edəcəklər.

| | |
|---|---|
| **Azərbaycan Respublikası Hökuməti adından** *(imza)* | **Özbəkistan Respublikası Hökuməti adından** *(imza)* |